*Rübabə Şirinova. Xətib Təbrizi və "Mişkatül-Məsabih" əsəri//Əlyazma kitabı Azərbaycan-Türkiyə elmi mədəni əlaqələr kontekstində, 24 oktyabr 2023-cü il, s.57-60.* https://doi.org/10.59849/mbcatr.2023.57

**Orcid: 0009-0003-9470-5860**

**Rübabə Şirinova**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu*
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
rubaba.sirinova@mail.ru

## XƏTİB TƏBRİZİ VƏ "MİŞKATÜL-MƏSABİH" ƏSƏRİ

**Xülasə**

Xətib Təbrizi VII-XI əsrlərdə ərəb dilində yaranmış mədəniyyətimizin ən görkəmli nümayəndəsidir. İslam tarixində böyük şöhrət qazanmış hədisşünas alimlərdən biri olan imam əl-Bəğavi XII əsrdə yaşamışdır. Onun "Məsabih əs-Sünnə" əsərinə bir çox alimlər şərhlər, haşiyələr yazmışlar. Şərh yazan alimlərdən biri də Xətib Təbrizidir. O, yazdığı şərhi "Mişkatül-məsabih" adlandırmışdır. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda əsərin bir əski çap nüsxəsi ilkin olaraq aşkarlamışıq. Əlyazmalar İnstitutunda mühafizə olunan əski çap nüsxəsi Bombeydə "əl-Məhəmmədi" mətbəsində 1282/1865-ci ildə çap olunmuşdur. Kitab mətnşünas alim Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadənin kitabxanasındandır.

Əsərin və müəllifin adı kitabın birinci səhifəsində belə verilib:

الشيخ ولى الدين بن محمد بن عبدالله الخطيب التبريزى العمرى ... الموسوم

Əş-Şeyx Vəliəddin bin Məhəmməd bin Abdullah əl-Xətib ət-Təbrizi əl-Amiri ... əl-Mövsüm

**Açar sözlər:** ədəbiyyat, mədəniyyət, tarix, alim, dilçilik

**Rubaba Shirinova**

## KHATIB TABRIZI AND THE WORK "MISHKATUL-MASABIH"

**Abstract**

Khatib Tabrizi is the most prominent representative of our culture, which was created in the Arabic language in the 7th-11th centuries. Imam al-Baghavi, one of the famous hadith scholars in the history of Islam, lived in the twelfth century. Many scholars have written comments and footnotes to his work "Masabih al-Sunnah". One of the scholars who wrote the commentary is Khatib Tabrizi. He called the commentary he wrote "Mishkatul-masabih". We initially discovered an old printed copy of the work at the Institute of Manuscripts named after ANAS Muhammad Fuzuli. The old printed copy preserved in the Institute of Manuscripts was printed in 1282/1865 at the "al-Muhammadi" printing house in Bombay. The book is from the library of textual scholar Abdulgani Efendi Nukhavi Khalisagarizade.

The name of the work and the author are given on the first page of the book as follows:

Sheikh Wali al-Din bin Muhammad bin Abdullah al-Khatib al-Tabrizi al-Omary ... al-Mosom Ash-Sheikh Waliaddin bin Muhammad bin Abdullah al-Khatib al-Tabrizi al-Amiri ... al-Mawsum

**Key words:** literature, culture, history, scientist, linguistics

İslam tarixində böyük şöhrət qazanmış hədisşünas alimlərdən biri olan imam əl-Bəğavi XII əsrdə yaşamışdır. Hədis alimlərindən biri olan İmam Bağavi Xorasanda yetişmişdir. Adı Hüseyn bin Məsud bin Muhəmməd, künyəsi isə Əbu Məhəmməddir. Ləqəbi Muhyissünnə və Ruknuddindir (1.V, 340-341). Mənbələrdə haqqında verilmiş rəvayətə görə o, kürk hazırlayıb satmaqla məşğul olardı. Bu sənətlə məşğul olduğu üçün İmam Bəğavi həm də "Əl-Fərra" (Kürk düzəldən və satan ) kimi də tanınırdı. Rəvayətlərə görə atası da bu sənətlə məşğul olduğu üçün İbnul Fərra kimi də tanınırmış. Şafei məzhəbi alimlərindən olmuş İmam Bəğavi 436/1044)-cı ildə Xorasanda Herat ilə Mərva şəhərləri arasında yerləşən Bağ kəndində anadan olmuş və 516/1117) Şəvval ayında Mərvdə vəfat etmişdir (2.I,312). İmam

Bəğavi hədis, fiqh, təfsir və tarix mövzularında bir çox əsərlər yazmışdır: "Məalimut-tənzil", "Şərhüs-sünnə", "Məsabih əs-sünnə", "Təhzib", "Məcmuətül-fətəva", "Əl-Ənvar fi şəmailil-muxtar", "əl-Cəm beynəs- səhiheyn" (3.I,573). Türk alimi Katib Çələbi (1067 / 1677) "Məsabih əs-sünnə" əsəri haqqında yazır: "Yığma mahiyyətində yazılan əsərlərin ən gözəli Bəğavinin "Məsabih" adlı əsəridir. Çünki onun tərtibi çox gözəldir. Hədislər yerli yerində yığılmışdır.Bir başqası hər hansı bir babın yerini dəyişdirməyə çalışsa Bəğavidən daha uyğun bir yerə qoymazdı deyərək əsəri tərifləyir" (4.II,1698). Katib Çələbi "Kəşf əz-Zunun an Əsamil-Kutub vəl-Funun" əsərində "Məsabih əs-sünnə" əsəri haqqında məlumat verərək yazır ki, bu əsərə bir çox alimlər şərhlər, haşiyələr, təliqlər və tərcümələr yazmışlar. Bunlardan: Hüseyin bin Mahmud bin əl-Həsən əz-Zeydani Muzhir əd-Din, Əli bin Übeydullah bin Əhməd Zeyn əl-Ərəb, Şihab əd-Din Fazilullah bin Hüseyn ət-Turbişi, Nəsrəddin Abdullah bin Ömər əl-Beyzavi, Məhəmməd bin İbrahim bin İshaq əs-Sülami əl-Munavi, Əbd əl-Lətifi bin Abd əl-Əziz bin Mələk Firiştə, Osman bin əl-Hacc Məhəmməd əl-Həravi, Əli bin Məhəmməd əs-Seyyid əş-Şərif əl-Curcani, Əli bin Sultan Məhəmməd əl-Qari, Qasim bin Qutluboğa əl-Hənəfi, Şəhabəddin Fəzlullah bun Hüseyin ət-Turişti əl-Hənəfi, və s. Azərbaycanlı alimlərdən: Əbu Abdullah İsmail bin Məhəmməd bin İsmail bin Əbd əl-Malik bin Ömər Əşrəfəddin əl-Fukkai ət-Tibrizi, Yahya bin Əli bin Məhəmməd bin əl-Hüseyin bin Bistami əş-Şeybani əl-Xətib ət-Təbrizi (Əbu Zəkəriyyə), Şəmsəddin Məhəmməd bin Müzəffər əl-Xalxali, Abdullah İbn Əhməd Zeyn Naxçıvani,Cəmaləddin Yusif bin İbrahim əl-Ərdəbili, Şeyx Əbul Nəcib Abdulqahir bin Abdullah əs-Suhraverdi, Abduləziz bin Məhəmməd bin Abduləziz əl-Əbhəri şərh yazmışlar (4.II, 11698-1702).

Bəğavinin "Məsabih sünnə" əsərinin dünya kitabxanalarında, əlyazma xəzinələrində onlarla nüsxələri qorunub saxlanır.Həmçinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda bu əsərin XIII-XIX əsrlərdə köçürülmüş on nüsxəsini ilkin olaraq aşkarlamışıq (5.26). Həmçinin bu əsərə şərh yazan Azərbaycanlı alimlərdən Yahya bin Əli bin Məhəmməd bin əl-Hüseyin bin Bistami əş-Şeybani əl-Xətib ət-Təbrizi (Əbu Zəkəriyyə), Cəmaləddin Yusif bin İbrahim əl-Ərdəbili, Abdullah İbn Əhməd Zeyn Naxçıvanininin Əlyazmalar İnstitutunda əlyazma və çap kitablarını ilkin olaraq üzə çıxarmışam (4.II, 1699).

Dahi Azərbaycan alimi, ədəbiyyatşünas, dilçi, şair və şərh ustası, ərəb alimlərinin "ədəbiyyat, qrammatika və leksikoqrafiya elmlərinin başçısı", "müdrik şeyx, ərəb elmlərinin rəhbəri, əbədiyyatşünaslığın bayraqdarı, hikmət qaynağı", "bütün ədəbiyyatşünasların rəhbəri" adlandırdığı, habelə akademik Həmid Araslı tərəfindən "XI əsrdə Azərbaycan türklərinin yetirdiyi ən böyük şəxsiyyət"-deyə yüksək qiymətləndirilən Yəhya bin Əli Xətib Təbrizi bu əsərə yazdığı şərhi "Mişkətül-məsabih" adlandırmışdır (6.20-23;2.II,519). O, yazdığı "Mişkətül-məsabih" əsərinə hədislər əlavə etmiş, bablara ayırmış, səhabələrin adlarını qeyd etmiş, hədislərə çox yerdə hökm vermiş və hədislərin hansı əsərlərdə keçdiyini zikr etmiş, beləliklə də ortaya tam bir əsər qoymuşdur (7.XXXX,223-224;3.IV,106-107).

AMEA Məhəmməd Füzuli adına Əlyamalar İnstitutunda ilkin olaraq aşkarladığımız V-333/1886 şifri altında mühafizə olunan "Mişkətül-məsabih" əsərinin qədim çap nüsxəsində (8), 1-ci səhifəsində müəllifin adı : " Şeyx Vəliəddin Məhəmməd bin Abdullah əl-Amiri əl-Xətib ət-Təbrizi" kimi verilib. "Mişkatül-məsabih" verilib. Əsərin və müəllifin adı şikəstə elementli nəsx xətti ilə iri həriflərlə yazılmış və Şərq orlamenti ilə bəzədilmiş çərçivəyə alınmışdır. Həmçinin çərçivənin kənarında qara mürəkkəblə mətnşünas alim Əbdülqəni Nuxəvinin xətti ilə belə bir qeyd yazılıb: "... İmam Abdulğəni bin Hacı Muhammed Əfəndi Nəqşibəndi ən-Nuxəvi əş-Şəkəvi 1290/1873-cü il, səfər ayının 8-i". Həmçinin Nuxəvi Təbrizinin bu şərhinə özü də şərh yazmış bu şərh əsərin haşiyələrində və kitaba əlavə olunmuş vərəqlərdə öz əksini tapmışdır.

Müəllif ilk olaraq kitaba müqəddimə yazmış, burada Allaha həmd-səna etdikdən, Peyğəmbərə (s), onun Əhli-beytinə (ə.s) və səhabələrinə salam və salavat göndərdikdən sonra Əbu Məhəmməd Hüseyn ibn Məsud əl-Bəğavinin "Kitabül-məsabih" əsərinin əhəmiyyətindən danışmış, daha sonra isə o ktaba yazdığı şərhdən bəhs etmişdir.

Xətib Təbrizi "Kitabül-məsabih"ın mənbələrinin çox zəngin olması ilə yanaşı, onun ən görkəmli alimlərin, o cümlədən Müslüm ibn Həccac ən-Nişapurinin, Əbu Abdullah Malik ibn Ənəsin, Məhəmməd ibn İdris əş-Şafeinin, Əbu Abdullah Əhməd ibn Hənbəlin, Əbu İsa Məhəmməd ibn İsa ət-Tirmizinin, Əbu Davud Süleyman ibn Əşəs əs-Sicistaninin, Əbu Əbdürrəhman Əhməd ibn Şüeyb ən-Nəsainin, Əbu Abdullah Məhəmməd ibn Yəzid ibn Macənin, Əbu Məhəmməd Abdullah ibn Əbdürrəhman əd-Dariminin, Əbülhəsən Əli ibn Ömər əd-Dəraqütninin, Əbu Bəkr Əhmədi ibn Hüseyn əl-Beyhəqinin, Əbülhəsən Rəzin

ibn Müaviyə əl-Əbdərinin və başqalarının öz əsərlərində nəql etdikləri hədislərə istinadən yazıldığını qeyd etmişdir (7.XXXX,223-224).

Müəllif "Mişkatül-məsabih" əsərini Bəğavinin fəsilləri əsasında tərtib etdiyini yazmışdır. "Mişkatül-məsabih" əsəri üç cilddə (I çap, h.1381/m.1961, II çap, h.1399/m.1979) Dəməşq və Beyrutda nəşr olunmuşdur (9.XXIX,258-260; 4.). "Mişkətül-məsabih" əsərinin xəzinəmizdə qorunan saxlanan nüsxəsi Bombeydə "əl-Məhəmmədi" mətbəəsində 1282/1865-ci ildə çap olunub. Əsərin içində olan kitablar haqqında məlumat verməyi məqsədə uyğun hesab edirik. Həmin kitablar bunlardır:

1. كتاب الايمام (3-24) – "Kitəb əl -İman" .
2. كتاب العلم (24-30) – "Kitəb əl - elm" .
3. كتاب الطهارة(30-49) –"Kitəb ət-Taharət" .
4. كتاب الصلوة (49-125) –" Kitəb əs - Salat" .
5. .كتاب الجنائز (125-146 ) –"Kitəb əl-Cənaiz".
6. . كتاب الزكوة - (147-165) – "Kitəb əz - Zəkat ".
7. . كتاب الصوم (165-175) – "Kitəb əs-Saum" .
8. .كتاب الفضائل القران (175-186) – "Kitəb fəzail əl-Quran".
9. .كتاب الدعوات (186-191) – "Kitəb əd-Dəvat".
10. كتاب اسماء الله تعالى (191-233 – "Kitəb Əsməi Allahu Təala".
11. .كتاب المناسك (212 --233) – " Kitəb əl-mənasik".
12. كتاب البيوع (233-258) – "Kitəb əl-Biyu" .

"Mişkatül-məsabih" əsərində sonluqda verilir ki: "Həmd olsun Allaha "Mişkat əl-Məsabih" əsərinin birinci yarısı bitdi. Allahın izni ilə kitabın ikinci hissəsi yəni nikah bölmü gəlir". Buradan belə qənaətə gəlmək olar ki, əsərin birinci hissəsi "Kitəb əl-İman" ilə başlayıb (s.3), "Kitəb əl-Biyu" (s.258) ilə bitir.

13. كتاب النكاح (259-285) – "Kitəb ən-Nikah".
14. كتاب العتق (285-291)- "Kitəb əl-İtaq" .
15.كتاب القصاص (291 -301) – " Kitəb əl-Qisas".
16.كتاب الحدود (301- 310) – " Kitəb əl-Hudud"
17. – كتاب الامارة و القضاء (310 -321) – "Kitəb əl-İmarat va əl-Qədai" .
18. كتاب الجهاد (321-332) – "Kitəb əl-Cihad" .
19. كتاب الى الكفار و دعائهم (332-348) - "Kitəb ilə əl-Kəffar va duaihim" .
20..كتاب الصيدوالذباح (349-355) – "Kitabus-seyd vəz-zəbaih".
21.كتاب الطعمة (355-365) -"Kitabul-ətimə" .
22. كتاب اللباس (365-379) - "Kitəb əl-Libas .
23. كتاب الطب و الرتى (379- 386)- "Kitəb ət-Tibbə" .
24. كتاب الرويا (386-389)- "Kitabur-röya".

İkinci cild "Kitəb ən-Nikah" ilə başlayıb (s.258), "Kitəb ər-Roya" ilə (s.386) bitir.

25. كتاب الادب (389- 431) - "Kitəb əl-Ədəb".
26. كتاب الرقاق (431 -453) -"Kitabur-riqaq".
27.كتاب الفتن (453-576) -"Kitabul-fətən" .

Əsərin və müəllifin adı ərəb dilində kitabın 1-ci səhifəsində belə verilib:

الشيخ ولى الدين بن محمد بن عبدالله الخطيب التبريزى العمرى ... الموسوم

Əş-Şeyx Vəliəddin bin Məhəmməd bin Abdullah əl-Xətib ət-Təbrizi əl-Amiri ... əl-Mövsüm

Əsərin əvvəli belə başlayır:

بسم الله الرحمان الرحيم الحمد الله نحمد و نستعينه و نستغفره و نعوذ بالله من شرور انفسنا و...
اما بعد – كتاب المصابح .... الامام محى السنة قامع البد ابو محمد الحسين بن مسعود الفراء البغوى.

Əsərin sonu belə bitir:

قال مؤلف الكتاب شكرالله سعيه: وأتم نعمته، وقع الفراغ من جمع هذه الأحاديث سنة النبوية صلى الله عليه وسلم اخر يوم الجمعة من رمضان عند روية هلال شوال سنه سبع وثلثين و سبع مائة محمد الله و حسين توفيقة الحمد الله رب العالمين والصلوة والسلام على رسوله محمد واله و اصحابه اجمعين.

Xətib Təbrizinin "əl-Mişkat" əsərinin Azərbaycan hədisşünaslığında çox mühüm yeri var. Müəllifin bu əsəri təkcə hədisşünaslığa aid deyil, orada eyni zamanda əqaid (kəlam) və fiqh elmlərinin fundamental problemlərinə də geniş yer verilmişdir. Bu əsərin tərcümə olunub oxuculara çatdırılması elmə böyük töhfə verərdi.

**ƏDƏBİYYAT:**


1. Mevlüt G. (1992). Begavi Ferra.TDVİA,V, 340 – 341.İstanbul.
2. اسماعيل پاشا البغدادی، هداية العارفين، استانبول، ١٩٥١، الجلد الاول، ٨٤٠ص، الجلد الثانی، ١١٦+٥٧٤، ١٩٥٥.
3. عمر رضا كحاله، معجم المولفين ١-٤، بيروت، الجزء الثالث، ٩٥٠ص، الجزء الرابع ٥٨١
4. مصطفى بن عبدالله الشهير بحاجى خليفة و بكاتب چلبى كشف الظنون عن اسامى الكتب و الفنون، جلد ١-٢، الجلد الاول، ٤٨+٩٣٨، الجلد الثانی، ٢٠٥٦ص. استنبول ١٩٤١-١٩٤٣.
5. Şirinova R. (2023). "Məsabih əs-Sünnə" əsərinə Azərbaycanlı alimlərinin şərhi. Vasim Məmmədəliyevin anadan olmasının 80 illik yubileyinə həsr edilən "Şərqşünaslıq: yeni istiqamətlər" mövzusunda Respublika elmi konfransın materialları. 16 noyabr 2022-ci il. Bakı.
6. Mahmudov M. (1972). "Xətib Təbrizinin həyat və yaradıcılığı"."Elm" nəşriyyatı Bakı.
7. Özel A.(2010).Tebrizi Hatib.TDVİA,XXXX, Ankara.
8. Təbrizi X. "Mişkatül-məsabih" V-333/1886. AMEA Məhəmməd Füzuli adına Əlyamalar İnstitutu.
9. Hatiboğlu İ. (2004). Mesabihus-Sünne,TDVİA XXIX, Ankara.